# DAYANIQLI ŞƏHƏR NƏQLİYYATININ 10 PRİNSİPİ




"Avtomagistralları olan şəhəri sivil adlandırmaq düzgün deyil, lakin əgər şəhərdə uşaq üçtəkərli velosipedlə hər yerdə hərəkət edə bilirsə belə şəhəri sivil adlandırmaq olar".(Enrike Penyalosa)

Effektiv şəhər nəqliyyatı sistemi şəhərlərin rəqabət qabiliyyətini artıran faktorlardan biridir. Nəqliyyat sistemi iş yerlərini, təhsil və səhiyyə müəssisisələrini əlçatan edir. Bir çox şəhərlərdə insanlar nəqliyyat vasitələrinin buraxdığı zəhərli qazlar səbəbindən sağlamlıq problemləri ilə üzləşirlər. Nəqliyyat sıxlığı və tıxaclar əhəmiyyətli vaxt itkisinə səbəb olub, iqtisadiyyata ciddi zərər yetirirlər. Karbohidrogen yanacağı istifadə edən şəxsi avtomobilə arxalanan şəhər nəqliyyat sistemi atmosferə atılan istixana qazların miqdarını artırır. Yol-nəqliyyat hadisələri insan tələfatına gətirib çıxarır, bu xüsusən həssas qruplara, yəni piyada və velosipedçilərə aiddir. Ən əsası, şəhərlərin yoxsul təbəqəsinin şəxsi avtomaşın almağa imkanı çatmadığına görə, bu cür insanlar təhlükəsiz və effektiv ictimai nəqliyyatdan məhrum olurlar. Bu təbəqə qeyri-adekvat, keyfiyyətsiz ictimai nəqliyyata və təhlükəli piyada və velosiped infrastrukturuna istifadə etməyə məcbur olur.

Bizim şəhər mobilliyinə olan yanaşmamızı bir neçə qısa sözlərlə təsvir etmək olar: Maşınları deyil, insanları daşıyaq. Əsas məqsəd ekoloji, ictimai və iqtisadi cəhətdən dayanıqlı mobillik növlərinə dəstək verməkdir, yəni ictimai nəqliyyat, piyada və velosiped hərəkəti. Məhz buna görə biz şəhərlərdə qabaqcıl nəqliyyat siyasətini tətbiq edən, məsələn Bus Rapid Transit (sürəli avtobus sistemi) sistemlərini və nəqliyyat tələbinin idarə edilməsi kimi layihələri icra edən tərəfdaş ölkə və şəhərlərə dəstək veririk. Dayanıqlı Şəhər Nəqliyyatı Layihəsini (SUTP) Almaniyanın İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi adından həyata keçirən GIZ təşkilatı tərəfdaş ölkələrdə yerli layihələrə dəstək olaraq, dayanıqlı şəhər nəqliyyatı sahəsində ən yaxşı təcrübələri və həlləri özündə birləşdirir.

Sənədlər www.sutp.org saytında mövcuddur.

Bu poster şəhərləri yaşayış üçün daha yaxşı yerə çevirən dayanıqlı şəhər nəqliyyatı sahəsində olan siyasətləri və tədbirləri birləşdirir.

Əlaqə: transport@giz.de


BMZ Federal Ministry for Economic Cooperation and Development

Transport for Baku

Implemented by giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH